**COP29 çərçivəsində dünya dini liderlərinin sammitinin keçirilməsi istiqamətində hazırlıqla bağlı müzakirələr aparılıb**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov sentyabrın 3-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşüb.

Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə dövlət-din münasibətlərinin daha da təkmilləşdirilməsi, ölkəmizdə fəaliyyət göstərən dini icmalar arasında maarifləndirmə sahəsində əlaqələrin genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi və qayğısı ilə dinimizin, ümumilikdə xalqımızın milli-mənəvi dəyərlər sisteminin qorunması, tolerantlıq, multikulturalizm ənənələrinin inkişaf etdirilməsi və təbliği istiqamətində çox mühüm tədbirlər həyata keçirilir.

Azərbaycanda mövcud olan dövlət-din münasibətləri modeli dini etiqad azadlığının sərbəst həyata keçirilməsinə imkan yaratmaqla bərabər, dini icmalar arasında qarşılıqlı anlaşmanın, həmrəyliyin dərinləşməsinə xidmət edir. Bildirilib ki, etnik-dini müxtəlifliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 konfransı çərçivəsində dünya dini liderlərinin sammitinin keçirilməsi istiqamətində hazırlıq işləri ilə bağlı müzakirələr aparılıb. Azərbaycan dövlətinin dünyada nüfuzunun artdığını, beynəlxalq səviyyədə ölkəmizə böyük etimadın mövcud olduğunu təsdiqləyən bu mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi üçün texniki-təşkilati məsələlərin həllində Dövlət Komitəsi ilə QMİ arasında əməkdaşlığın vacib əhəmiyyətə malik olduğu qeyd edilib. Sammitə dəvət olunacaq qonaqların ölkəmizə səfəri ilə bağlı həllini gözləyən məsələlər ətrafında fikir mübadiləsi aparılıb, müxtəlif ideya və təkliflər müzakirə edilib. COP29 çərçivəsində keçiriləcək dini liderlərin sammitinə hazırlıq işlərinin effektiv koordinasiyası məqsədilə yaradılacaq təşkilat komitəsində Dövlət Komitəsi və QMİ nümayəndələrinin yer almasının zəruriliyi vurğulanıb.

**AZƏRTAC**
**2024, 4 sentyabr**